Deloitte.





# Deloitte vergi və mühasibatlıq bülleteni

## Xəbərlər

- **Bir sıra bəyannamə, onların əlavə formaları və tərtib olunması qaydaları təsdiq edilib.** 1 yanvar 2024-cü il tarixindən etibarən vergi ödəyicilərinin şəxsi elektron kabinetlərindən istifadə etmək imkanı yalnız gücləndirilmiş elektron imza vasitəsilə mümkündür.

2024-cü ildə İnternet Vergi İdarəsinə (www.e-taxes.gov.az) istifadəçi kodu, parol və şifrə vasitəsilə daxil olmaq imkanı məhdudlaşdırılacaq.

Bu səbəbdən vergi ödəyiciləri elektron kabinetlərindən istifadə etmək, “Əmək müqaviləsi Bildirişi”ni qeydiyyata almaq, elektron qaimə-faktura göndərmək, bəyannamə və hesabatları təqdim etmək, vergi orqanı tərəfindən göndərilən sənədlərlə tanış olmaq üçün gücləndirilmiş elektron imza vasitələrindən birini “Asan İmza” və ya "E-imza" (SİMA Token) əldə etməlidir.

Beləliklə, 1 yanvar 2024-cü il tarixindən etibarən vergi ödəyicilərinin məlumatlarının təhlükəsizliyi və mühafizəsinin təmin edilməsi məqsədilə İnternet Vergi İdarəsinə (www.e-taxes.gov.az) istifadəçi kodu, parol və şifrə vasitəsilə daxil olmaq imkanı məhdudlaşdırılmışdır.

Ətraflı məlumat üçün keçid:
https://www.taxes.gov.az/az/post/2950

- **Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Qanun qüvvəyə minib.**
5 dekabr 2023-cü il tarixində Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Ötən illərdə olduğu kimi, bu dəfə də Vergi Məcəlləsində edilmiş dəyişikliklərin əsas hədəf istiqamətləri sahibkarlıq fəaliyyəti subyektlərinin vergi yükünün optimallaşdırılması, sahibkarlıq fəaliyyətinin təşviqi, sosial xarakterli vergi güzəştləri ilə əhalinin vergi yükünün azaldılması, kölgə iqtisadiyyatına qarşı mübarizə tədbirlərinin təkmilləşdirilməsidir. Qeyd edək ki, bu Qanun 1 yanvar 2024-cü ildə qüvvəyə minmişdir.

Ətraflı məlumat üçün keçid:
https://e-qanun.az/framework/49594

- **Elektron ticarəti həyata keçirən qeyri-rezidentlər əlavə dəyər vergisinin məqsədləri üçün elektron qaydada vergi uçotuna alınacaqdır.**
İqtisadiyyatın rəqəmsallaşması nəticəsində sürətlə inkişaf edən elektron ticarətin şəffaf və qanunamüvafiq şəkildə vergiyə cəlb edilməsi, verginin əsas iqtisadi fəaliyyətin həyata keçirildiyi və dəyərin yarandığı ölkədə tutulması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 2023-cü il tarixli 387 nömrəli Qərarı ilə internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması qaydası ("Qayda") təsdiq edilmişdir.

Sözügedən Qayda rezidentlərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınmasını, yenidən uçota alınmasını və uçotdan çıxarılması ilə bağlı təşkilati və hüquqi əsaslarını müəyyən edir.

Qeyd edək ki, elektron ticarəti həyata keçirən qeyri-rezident dedikdə, internet məlumat resursları vasitəsilə xidmətlər təmin edən və əməliyyatları yerinə yetirən, elektron kitabların, musiqinin, audio və video materialların, qrafik təsvirlərin, virtual oyunların, proqram təminatlarının yüklənilməsi, reklamların yerləşdirilməsi kimi fəaliyyətləri həyata keçirən və xidmətləri satıcı (təchizatçı) kimi icra edən qeyri-rezident nəzərdə tutulur.

Qaydaya əsasən, Azərbaycan Respublikasında daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərməyən və yuxarıda qeyd edilən elektron ticarət xidmətlərini göstərən qeyri-rezident elektron ticarət iştirakçılarının vergi inzibatçılığına dair platformasına məlumatları daxil edərək müraciət edir və təqdim edilən məlumatlar vergi orqanlarında mövcud olan məlumat bazalarından istifadə etməklə 20 iş günü müddətində Qaydaya uyğunluğu yoxlanıldıqdan sonra, imtina halları aşkar edilmədikdə qeyri-rezident şəxs uçota alınır. Qayda Azərbaycan Respublikasında daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərən qeyri-rezidentlərə şamil edilmir.

Vergi uçotuna duran qeyri-rezidentlər Vergi Məcəlləsinin müvafiq maddələrinə uyğun olaraq təqdim etdikləri xidmətlər (yuxarıda qeyd edilən xidmətlər nəzərə alınmaqla) üzrə aylıq əsasda əlavə dəyər vergisi ("ƏDV") bəyannaməsini təqdim etməli və ƏDV-ni dövlət büdcəsinə ödəməlidirlər. Bu halda isə rezidentlər tərəfindən qeyri-rezident əvəzinə hesablanan və Vergi Məcəlləsinin 169-cu maddəsinə (qeyri-rezidentin ƏDV-yə cəlb edilməsi) əsasən hesablanan ƏDV ödəmə mənbəyində tutulmur.

Ətraflı məlumat üçün keçid:
https://e-qanun.az/framework/55514

- **Azərbaycan Respublikası Çoxtərəfli Vergi Konvensiyasına qoşulub.**
20 noyabr 2023-cü il tarixində Azərbaycan Respublikası tərəfindən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) nümayəndələri ilə görüş keçirilib. Görüşün nəticəsində "Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsinin qarşısının alınması məqsədilə Vergi Sazişi üzrə tədbirlərin həyata keçirilməsinə dair Çoxtərəfli Konvensiya" ("Konvensiya") imzalanıb. Bununla da, Azərbaycan Respublikası 100-dən çox ölkənin qoşulduğu Konvensiyaya tərəfdar çıxmaqla, qlobal səviyyədə vergidən yayınmanın qarşısının alınması prosesinə töhfə vermək niyyətini nümayiş etdirib.

Qeyd edək ki, Konvensiya ikitərəfli vergi müqavilələrinin yenilənməsi və transmilli şirkətlər tərəfindən vergidən yayınma imkanlarının azaldılması üçün dünyanın aparıcı alətidir. Konvensiyanın məqsədi vergi sazişlərindən sui-istifadə edilməsinin qarşısının alınması, daimi nümayəndəlik yaratmamaq üçün strategiyalara qarşı tədbirlərin görülməsi və hibrid uyğunsuzluqdan sui-istifadə imkanlarının qarşısının alınmasıdır. Bundan əlavə, Konvensiya mübahisəli məsələlərin həlli mexanizmini də gücləndirir.

Konvensiyanın tam təfsilatı ilə (ingilis dilində) aşağıdakı link-ə keçid alaraq tanış ola bilərsiniz:
https://www.oecd.org/tax/beps/azerbaijan-signs-landmark-agreement-to-strengthen-its-tax-treaties.htm

- **Yeni məlumat forması təsdiq edilib.**
İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin 29 noyabr 2023-cü il tarixli əmri ilə "Cari ilin büdcə-vergi siyasəti çərçivəsində hazırlanmış Azərbaycan Respublikasının Vergi Məcəlləsində və digər aidiyyəti normativ hüquqi aktlarda ediləcək dəyişikliklərlə əlaqədar görülməli işlər barədə" Tədbirlər Planı təsdiq edilib.

Tədbirlər Planına əsasən, Dövlət Vergi Xidməti idxal olunmuş kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışını həyata keçirən vergi ödəyicilərinin idxal etdikləri kənd təsərrüfatı məhsullarına görə ödənilmiş ƏDV-ni əvəzləşdirmək və həmin məhsulların təqdim olunması zamanı ƏDV-ni əməliyyatın tam dəyərindən hesablamaq hüququndan istifadə ilə bağlı məlumat formasını təsdiq edib.

Məlumat forması ilə aşağıdakı link vasitəsilə tanış olmaq mümkündür:
https://www.taxes.gov.az/uploads/2023/beyanname/KT.xlsx

- **Qarşılıqlı razılıq prosedurunun aparılmasına dair müraciətlərə baxılması barədə Bələdçi hazırlanıb.**
"Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsi (BEPS)" layihəsinin minimum standartlarından biri hesab olunan 14-cü Fəaliyyət Planının tələblərindən biri Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin "Qarşılıqlı razılıq proseduru" maddəsinə uyğun olaraq müraciətlərin edilməsi imkanının yaradılması ilə bağlıdır. Razılıq prosedurunun əsas məqsədi Azərbaycan Respublikasının və ya beynəlxalq müqaviləyə tərəfdar çıxan xarici ölkənin (ərazinin) rezidenti olan vergi ödəyicisi tərəfindən beynəlxalq müqavilənin müddəalarına uyğun olmayan vergitutma ilə nəticələnən və ya nəticələnə biləcək mübahisələrin həllidir.

Dövlət Vergi Xidməti tərəfindən qarşılıqlı razılıq prosedurunun aparılmasına dair müraciətlərə baxılması və bu prosedurun təşkil olunması qaydasını özündə əks etdirən "Bələdçi" hazırlanıb. "Bələdçi" qarşılıqlı razılıq prosedurunun aparılmasına dair müraciətlərin hüquqi əsası, müraciətin edilməsi, tələb olunan sənədlər, prosedurun mərhələləri və hüquqi mexanizmlərin təsiri, müraciətə Dövlət vergi Xidmətində baxılması və onun həlli kimi məsələləri əhatə edir.

"Mübahisələrin həlli" tətbiqi ilə bağlı hazırlanmış "Bələdçi" Dövlət Vergi Xidmətinin rəsmi internet səhifəsinin "Beynəlxalq vergi münasibətləri" bölməsinin "Sazişlər və qaydalar" hissəsində yerləşdirilib.

"Bələdçi" ilə aşağıdakı link vasitəsilə tanış olmaq mümkündür ("Sazişlər və qaydalar" bölməsi):
https://www.taxes.gov.az/az/page/beynelxalq-vergi-munasibetleri

- **"Vahid bəyannamə"nin göndərilməsi prosesi asanlaşdırılıb.**
  "Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulmalar üzrə vahid bəyannamə"nin optimallaşdırılması və təkmilləşdirilməsi istiqamətində müvafiq işlər aparılıb və sadələşdirilmiş vahid bəyannamə forması hazırlanıb. Bu, vergi ödəyicilərinin inzibati yükünü azaltmaqla yanaşı, mikro və kiçik sahibkarlıq subyektlərinin xidmət mərkəzlərinə müraciət etmədən bəyannanmənin rahat şəkildə təqdim olunmasına imkan verir.

  Bu bəyannamə ilkin mərhələdə işçisi olmayan fiziki şəxslər tərəfindən tərtib edilir. Yeni formaya aid proqram təminatı 2023-cü ilin IV rübündən etibarən istifadəyə verilib və sadələşdirilmiş interfeys formasında sistemə keçid təmin edilib.

  Ətraflı məlumat üçün keçid:
  https://www.taxes.gov.az/az/post/3040

- **İdxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının siyahısı təsdiq edilib.**
  Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 yanvar 2024-cü il tarixli 22 nömrəli Qərarı ("Qərar") ilə idxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının siyahısı təsdiq edilib.

  Xatırlatmaq istərdik ki, fərdi sahibkarların idxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının istehsalı ilə bağlı fəaliyyətdən əldə etdiyi gəlirin 50 faizi 2024-cü ildən 7 il müddətinə gəlir vergisindən azaddır. Əlavə olaraq, sözügedən fəaliyyəti həyata keçirən hüquqi şəxslərin həmin fəaliyyətdən əldə etdikləri mənfəətin 50 faizi 2024-cü ildən 7 il müddətinə hüquqi şəxslərin mənfəət vergisindən azaddır. Qərara əsasən siyahısı təsdiqlənən malların istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslər həmin istehsal fəaliyyəti prosesində istifadə olunan əmlaka və torpaqlara görə 2024-cü ildən 7 il müddətinə müvafiq olaraq əmlak və torpaq vergilərini ödəməkdən azaddırlar.

  Qərarın təfsilatı ilə aşağıdakı keçiddə tanış ola bilərsiniz:
  https://nk.gov.az/az/senedler/qerarlar/idxal-mallarini-yerli-istehsal-emal-mallari-ile-ev-7719

- **"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilib.**
  Azərbaycan Respublikasının Milli Məclisinin 22 dekabr 2023-cü il tarixli 1059-VIQD nömrəli qərarı ilə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu ("Qanun") təsdiq edilmişdir.

  Qanuna əsasən, aşağıdakı mühasibat uçotu subyektlərində mühasibat uçotu elektron formada aparılmalıdır:
  – iri sahibkarlıq subyektlərində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi mərhələlərə uyğun olaraq orta sahibkarlıq subyektlərində;
  – qanunla təsdiq edilmiş hasilatın pay bölgüsü, əsas ixrac boru kəməri haqqında və digər belə sazişlər və ya qanunlar, o cümlədən neft və qaz haqqında, ixrac məqsədli neft-qaz fəaliyyəti haqqında qanunlar çərçivəsində fəaliyyət göstərən vergi ödəyicilərində;
  – illik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını bu Qanuna uyğun olaraq dərc etməli olan publik hüquqi şəxslərdə (Azərbaycan Respublikasının Mərkəzi Bankı istisna olmaqla).

  Qanunun təfsilatı ilə aşağıdakı keçiddə tanış ola bilərsiniz:
  https://e-qanun.az/framework/56150

## Xatırlatma!

- **2024-cü ilin yanvar ayı ərzində təşkilatınızın neft və ya qeyri neft fəaliyyət sektoruna aid olub olmadığını yoxlamağınızı unutmayın! 2023-cü ildə əldə edilən gəlirlərinin 50%-dən çox olan hissəsi Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və onun strukturuna daxil olan müəssisələr, habelə hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlər üzrə podratçılar və əməliyyat şirkətlərinə aiddirsə, 2024-cü ildə təşkilatın fəaliyyəti neft sahəsinə aid olunacaq. Bu hal əməkhaqqı hesablanması zamanı gəlir vergisi və məcburi dövlət sosial sığorta haqlarının dərəcəsinə təsir edir. Ətraflı məlumat üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18 fevral 2019-cu il tarixli 56 nömrəli qərarı ilə tanış ola bilərsiniz:**

  **https://e-qanun.az/framework/41611**

## Yanvar

| B.E. | Ç.A. | Ç. | C.A. | C. | Ş. | B. |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 |
| 22 | 23 | 24 | 25 | 26 | 27 | **28** |
| 29 | 30 | 31 | | | | |

- Enerji məhsullarının hərəkəti haqqında 4–enerji №-li forma

## Fevral

| B.E. | Ç.A. | Ç. | C.A. | C. | Ş. | B. |
|---|---|---|---|---|---|---|
| | | | **1** | 2 | 3 | 4 |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 12 | 13 | 14 | **15** | 16 | 17 | **18** |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | **25** |
| 26 | 27 | 28 | 29 | | | |

- 01 fevral (müəssisələr üçün) / 10 fevral (Nazirliklər üçün) - Obyektlərin, əsas fondların istifadəyə verilməsi və əsas kapitala yönəldilmiş investisiyalar haqqında 1-investisiya №-li forma
- 15 fevral - İstifadəyə verilmiş əsas fondların, yaşayış evlərinin, sosial-mədəni tikililərin və əsas kapitala yönəldilmiş vəsaitlərin regionlar üzrə bölgüsü 1-investisiya №-li illik hesabata əlavə
- 15 fevral - Müəssisələrdə informasiya və kommunikasiya texnologiyalarından (İKT) istifadə haqqında 1 №-li forma (İKT)
- 15 fevral - Atmosfer havasına atılan zərərli maddələrə dair hesabat 2-TG (hava) №-li forma
- 25 fevral - Müəssisənin innovasiya fəaliyyəti haqqında hesabat 1 №-li forma (innovasiya)
- 25 fevral - Ətraf mühitin mühafizəsinə çəkilən cari xərclər və ödənişlər haqqında hesabat 4-ətraf mühit №-li forma

## Mart

| B.E. | Ç.A. | Ç. | C.A. | C. | Ş. | B. |
|---|---|---|---|---|---|---|
| | | | | 1 | 2 | 3 |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 11 | 12 | 13 | 14 | **15** | 16 | 17 |
| 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | **31** |

- 15 mart - Əmək üzrə hesabat 1-əmək №-li forma
- 15 mart - Əmək şəraiti haqqında 2-əmək №-li forma
- 31 mart – Gəlir, Mənfəət və Əmlak vergisi bəyannamələrinin təqdim olunması üçün son tarix. Vergi Məcəlləsinin 74-cü maddəsinə əsasən Gəlir və Mənfəət vergisi hesabatlarının müddəti üç ayadək uzadıla bilər, o şərtlə ki ödənilməli olan vergi tam məbləği ilə büdcəyə ödənilsin. Müvafiq maddə verginin ödənilməsi müddətini dəyişməsini nəzərdə tutmur. Hesabatın təqdim olunma müddətinin uzadıması üçün arayışın təqdim olunmasının son tarix 31 martdır.

## Aprel

| B.E. | Ç.A. | Ç. | C.A. | C. | Ş. | B. |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 |
| 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 29 | **30** | | | | | |

- 30 aprel - Müəssisənin (təşkilatın) maliyyə vəziyyəti, maliyyə fəaliyyətinin nəticələri və digər iqtisadi göstəriciləri haqqında 1-Müəssisə №-li forma
- 30 aprel - Kommersiya təşkilatlarının, habelə publik hüquqi şəxslərin və budcə təşkilatlarının, qeyri-kommersiya təşkilatların, o cümlədən büdcədənkənar dövlət fondlarının illik maliyyə hesabatlarının təsisçiyə, habelə qanunla və nizamnamələri ilə müəyyən edilmiş şəxslərə təqdim olunması üçün son tarix.

## Bunu bilirdinizmi?

İnzibati Xətalar Məcəlləsinin 462.3-cü maddəsinə uyğun olaraq peşəkar mühasib olmayan şəxslərin baş mühasib vəzifəsinə təyin edilməsinə, habelə peşəkar mühasib olmayan şəxlərə baş mühasib vəzifələrinin icrasının həvalə edilməsinə görə vəzifəli şəxslər 300 AZN-dən 400 AZN-dək məbləğdə cərimə edilə bilər.

# Tədbirlərimiz və yeniliklərimiz

## Ənənəvi Vergi Konfransı

5 dekabr 2023-cü il tarixində Deloitte şirkəti "Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinə həsr olunmuş ənənəvi İllik Vergi Konfransı keçirmişdir. Konfransın xüsusi qonaqları, Dövlət Vergi Xidmətinin Vergi siyasəti baş idarəsinin rəis müavini Əvəz Quliyev və Qanunvericiliyin monitorinqi və sahibkarlıq subyektləri ilə iş idarəsinin rəisi Əhməd Əhmədov 2024-cü ildə gözlənilən dəyişiklərə aydınlıq gətirib konfrans iştirakçılarının çoxsaylı suallarına cavab verdilər. Qeyd edək ki, tədbirdə yerli biznes icmasından 100-dən artıq nümayəndələr iştirak etmişdir.







## Texnologiyalar parklarının rezidentləri üçün tədbir

Deloitte və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi texnologiyalar parklarının rezidentləri üçün müştərək tədbir keçirmişdir.

Tədbir zamanı rezidentlər üçün nəzərdə tutulan vergi güzəştləri və onların tətbiqi zamanı qarşıya çıxan çətinliklərin ətraflı müzakirəsi aparılmışdır. Tədbirin xüsusi qonaqları, Dövlət Vergi Xidmətinin Vergi Siyasəti baş idarəsinin rəis müavini Əvəz Quliyev və Bəyannamələr və kameral vergi yoxlamalarına nəzarət baş idarəsinin rəisi vəzifəsinin müvəqqəti icraçısı, baş idarə rəisinin müavini Samir Qəhrəmanov tədbir iştirakçıların suallarına cavab verdilər.







# Xidmətlərimiz

## Vergi Məsləhətləri

1. Vergi öhdəliklərin yoxlanılması
2. Dövlət vergi orqanları tərəfindən keçirilən yoxlama zamanı dəstək
3. Yerli  və beynəlxalq vergitutma ilə bağlı məsləhət xidmətləri
4. Transfer qiymətləndirmə ilə bağlı xidmətlər

## Biznes Proseslərin həlli

**1. Maliyyə Evi**

- Mühasibatlıq
- Vergi hesabatlığı
- Maliyyə nəzarəti

**2. Texnologiya və Robototexnika Mərkəzi**

- Proqram təminatı vasitəsilə müxtəlif növ yüksək həcmli, daimi təkrarlanan əməliyyatların, robotlar tərəfindən qısa bir zamanda və səhvsiz icrası
- Maliyyə və mühasibatlıq proqramının seçimi, texniki tapşırıqların yazılması, və sınağ dövründə dəstək.

**3. Əmək haqqı hesablanması**

# Bizim Komanda:

## Vergi məsləhətləri



**Nuran Kərimov**
**İdarəedici Partnyor**
Tel: +994 (12) 404 12 10
Email: nkerimov@deloitte.az



**Nərmin Aslanova**
**Vergi üzrə Partnyor**
Tel: +994 (12) 404 12 10
Email: naslanova@deloitte.az

## Biznes proseslərin həlli



**Rəna Xəlilova**
**Vergi üzrə Direktor**
Tel: +994 (12) 404 12 10
Email: rkhalilova@deloitte.az

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə vəya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL (“Deloitte Qlobal”) və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 457,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə “Deloitte Şəbəkəsi”) hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.

8 Noyabr pr. 25E, Bakı Ağ Şəhər Ofis Binası
Bakı, AZ1025, Azərbaycan Respublikası

© 2024 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.